№ 07-08 (839) 30 aprel 2026-cı il ○ Qəzet 1991-ci ildən nəşr olunur ○ www.health.gov.az; ○ www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



«Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 4



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş «Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği»ndə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI 4



«Narkoloji xidmət və nəzarət haqqında» Qanuna təklif edilən dəyişikliklər təsdiqlənib 4

## «Uşaq hüquqları haqqında» Qanun qəbul olundu



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununu imzalayıb.

Ölkəmizdə uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edən Qanunun müddəaları arasında uşaqların sağlamlığı ilə bağlı məsələlər də öz əksini tapıb.

2



## Akademik Zərifə Əliyeva oftalmologiya sahəsində müstəsna xidmətləri ilə yadda qalıb

*Milli Oftalmologiya Mərkəzinin 80 illik yubileyi qeyd edilib*

Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə akademik Zərifə Əliyevanın anadan olmasının 103 illiyinə və mərkəzin 80 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.

Səh. 6

## «Ətraf mühitin çirklənməsinin insan sağlamlığına təsirinin azaldılması əsas prioritetlərindən biridir»

*Səhiyyə naziri Astanada Regional Ekoloji Sammitdə keçirilən çıxış edib*




Səh. 7

## Səhiyyə Nazirliyinə yeni səlahiyyət verildi




«Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» 30 dekabr 2022-ci il tarixli Qanunun tətbiqi barədə dövlət başçısının 31 yanvar 2023-cü il tarixli 2007 nömrəli Fərmanında dəyişiklik edilib.

President.az saytı məlumat verir ki, bununla bağlı Prezident İlham Əliyev yeni Fərman imzalayıb.

2

## Səhiyyə Nazirliyinin yeni Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasına mediatur keçirilib



Səhiyyə Nazirliyinin dəstəyi ilə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) nəzdində yeni Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası yaradılıb. Yeni klinika ölkə vətəndaşlarına beynəlxalq standartlara uyğun rekonstruktiv və estetik cərrahiyyə xidmətləri göstərəcək.

9

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununu imzalayıb.**

# «Uşaq hüquqları haqqında» Qanun qəbul olundu



Ölkəmizdə uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edən Qanunun müddəaları arasında uşaqların sağlamlığı ilə bağlı məsələlər də öz əksini tapıb.

Sənədin «Ümumi müddəalar» adlanan 1-ci fəslinin «Əsas anlayışlar» maddəsində «uşağın üstün mənafeləri» onun rifahı, təhlükəsizliyi, sağlamlığı, təhsili və inkişafı ilə bağlı mənafelər kimi şərh olunur. «Uşaqlara qarşı cismani cəza» anlayışı valideynlər (onları əvəz edən şəxslər), uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri tərəfindən tərbiyə etmək məqsədilə və ya intizam tədbiri kimi uşaqlara qarşı törədilən fiziki və (və ya) psixoloji zorakılıq olaraq izah edilir. «Uşaqlara qarşı zorakılıq» dedikdə uşağın həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan, ona fiziki və ya psixoloji əzab verən və ya verə biləcək, uşağın mənafeyinə zidd olan, müxtəlif üsullarla, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədilən əməl (hərəkət və ya hərəkətsizlik) nəzərdə tutulur.

«Uşaqlar barəsində dövlət siyasəti» adlanan 2-ci fəsildə bu siyasətin məqsədləri sırasında uşaqların hüquq və azadlıqlarının təmin edilməsi, bunun üçün institusional mexanizmlərin yaradılması, uşaqların sağlamlığına və inkişafına zərər vuran məlumatlardan qorunması yer alır. Bu sahədə dövlətin əsas vəzifələrindən biri də uşaqların hüquq və azadlıqlarının müdafiəsini təmin edən dövlət orqanlarının (qurumlarının), təhsil, tibb, sosial xidmət müəssisələrinin təsis edilməsi, uşaqların inkişafı və asudə vaxtının təşkili üzrə infrastrukturun yaradılması və təkmilləşdirilməsi, eləcə də təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə uşaqlarla müntəzəm təmasda olan şəxslərin (mütəxəssislərin) peşəkarlığının təmin edilməsidir.

Sənəddə qeyd olunur ki, uşaqlar barəsində dövlət siyasəti normativ hüquqi bazanın təkmilləşdirilməsi, dövlət proqramlarının və bu kimi digər sənədlərin işlənib hazırlanması və həyata keçirilməsi, təhsil, səhiyyə, sosial müdafiə və digər sahələrdə əlaqələndirmə və qurumlararası əməkdaşlıq çərçivəsində, vətəndaş cəmiyyəti institutlarının və media subyektlərinin iştirakı ilə həyata keçirilir.

Uşağın əsas hüquq və azadlıqlarının dövlət təminatının şərh olunduğu 3-cü fəsildə 16-cı maddə «Uşağın həyat və sağlamlığının qorunması hüququ» adlanır. Burada bildirilir ki, hər bir uşağın həyat və sağlamlığının qorunması hüququ vardır. Dövlət uşaqların həyatının mühafizəsi, onların sağlam inkişafı, ekoloji təhlükəsizliyi, keyfiyyətli qida və içməli təmiz su ilə təminatı üçün bir sıra tədbirlər görür. O cümlədən, profilaktik peyvəndlərin aparılması və uşaqların inkişafına yönəldilmiş digər qabaqlayıcı tədbirlərin görülməsi, uşaqların qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən qida və içməli su ilə təminatı, uşaqların və valideynlərin (onları əvəz edən şəxslərin) sağlamlığın qorunması, uşaqların sağlam qidalanması, ana südü ilə qidalanma, gigiyena qaydalarına əməl olunma, ətraf mühitin mühafizəsi, təbii fəlakətlərdən və bədbəxt hadisələrdən qorunma barədə məlumatlandırılması, uşaq ölümünün azaldılması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi bu tədbirlər sırasındadır.

Dövlət həmçinin uşaqların dispanserizasiyadan keçmək, dispanserizasiyanın nəticələrindən asılı olaraq tibbi göstərişlər əsasında ambulator, stasionar və ya sanatoriya-kurort şəraitində tibbi yardım almaq, dispanserizasiyanın nəticələri, o cümlədən aparılmış müayinə-müalicə tədbirləri, habelə sağlamlığının vəziyyəti haqqında uşaqların və onların qanuni nümayəndələrinin tam və obyektiv məlumat almaq hüququnu təmin edir.

Qanunda vurğulanır ki, valideynlər (onları əvəz edən şəxslər) uşaqların sağlamlığının qayğısına qalmalı və uşağın tibbi yardıma ehtiyacı olduqda dərhal tibb müəssisəsinə müraciət etməlidirlər.

Uşaqlara tibbi-sosial yardım «Əhalinin sağlamlığının qorunması haqqında» Qanuna uyğun olaraq, təcili və təxirəsalınmaz tibbi yardıma ehtiyacı olan uşaqların müalicəsinin təşkili isə «Tibbi sığorta haqqında» Qanuna uyğun olaraq həyata keçirilir.

Uşaqların dövlət və bələdiyyə tibb müəssisələrində profilaktik peyvənd edilməsindən əvvəl büdcə vəsaiti hesabına tibbi baxışdan keçmək və müayinə olunmaq, profilaktik peyvəndlər təqviminə əsasən yaş qruplarına görə peyvənd olunmaq, postvaksinal fəsadlar baş verdikdə müalicə olunmaq, epidemik göstərişlərə görə profilaktik peyvəndlərdən imtina etmək hüququ vardır.

Uşaqların təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə saxlanma, təhsil və tərbiyə şəraiti Azərbaycan Respublikasının sanitariya-epidemioloji salamatlıq haqqında qanunvericiliyinin tələblərinə uyğun olmalıdır.

Dövlət zorakılıqdan, hərbi münaqişələrdən, təbii fəlakətlərdən və bədbəxt hadisələrdən zərər çəkmiş, zorakılığın şahidi və qurbanı olmuş, habelə əlilliyi olan uşaqların fiziki və psixi sağlamlığının qorunmasını, o cümlədən sosial reabilitasiyasını təmin edir.

Əhalinin sağlamlığının qorunması sahəsində fəaliyyət göstərən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları fəaliyyət istiqamətlərinə uyğun olaraq uşaqların sağlamlığının mühafizəsi üzrə proqramlar həyata keçirirlər.

Qanunun «Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ» adlanan 18-ci maddəsində hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ olması təsbit olunur, bildirilir ki, uşaqların təhqir edilməsi, şərəf və ləyaqətinin alçaldılması qadağandır. Ailədə, təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində, penitensiar müəssisələrdə və uşağın ola biləcəyi digər yerlərdə, habelə internet informasiya ehtiyatlarında və informasiya-telekommunikasiya şəbəkələrində uşağa qarşı zorakılıq qadağandır.

*(Davamı səhifə 3-də)*




## Səhiyyə Nazirliyinə yeni səlahiyyət verildi

**«Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» 30 dekabr 2022-ci il tarixli Qanunun tətbiqi barədə dövlət başçısının 31 yanvar 2023-cü il tarixli 2007 nömrəli Fərmanında dəyişiklik edilib.**

President.az saytı məlumat verir ki, bununla bağlı Prezident İlham Əliyev yeni Fərman imzalayıb.

Dəyişikliyə əsasən, 2007 nömrəli Fərmanın 1.7-ci bəndinə «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi» sözləri əlavə edilib. Bununla da Səhiyyə Nazirliyinə maliyyə monitorinqi ilə bağlı məlumatları elektron qaydada sorğu əsasında almaq hüququ verilib.

Nazirlər Kabinetinə Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# «Uşaq hüquqları haqqında» Qanun qəbul olundu

*(Əvvəli 2-ci səhifədə)*

Valideynlər (onları əvəz edən şəxslər), habelə uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri uşaqda zorakılıq hərəkətlərinin əlamətlərini aşkar etdikdə konfidensiallığa əməl etməklə, bu barədə aidiyyəti hüquq mühafizə orqanlarına və ya ərazi üzrə aidiyyəti uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya məlumat verməyə borcludurlar, habelə uşaq qaynar xətt xidmətinə məlumat verə bilərlər.

Valideynlər (onları əvəz edən şəxslər), habelə dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxsləri, tibb müəssisələri, hüquq mühafizə orqanları və digər səlahiyyətli orqanlar zorakılığa məruz qalmış uşağın fiziki sağlamlığının və psixoloji vəziyyətinin bərpa olunması üçün bütün lazımi tədbirləri görməyə borcludurlar.

Dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları, habelə hüquqi və vəzifəli şəxslər təhsil, tibb, sosial müdafiə, hüquq mühafizə, idman, media, mədəniyyət və istirahət sahələrində uşaqlarla müntəzəm təmasda olan şəxslərlə uşaqların müdafiəsi və uşaq hüquqları barədə təbliğat-təşviqat işlərinin aparılması, həmin şəxslərin zorakılığa məruz qalmış uşaqların müəyyən edilməsi vasitələri barədə təlimatlandırılması üçün tədbirlər görürlər.

Təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınması və zorakılıq baş verdiyi təqdirdə səmərəli cavab tədbirlərinin tətbiqi üzrə mexanizmlər formalaşdırılır. Bu müəssisələr uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınması üçün tədbirlər görməyə borcludur.

Qanunun uşağın vicdan azadlığı barədə 19-cu maddəsində qeyd edilir ki, uşaqların dini tərbiyəsi onların fiziki və psixi sağlamlığına mənfi təsir göstərməməlidir. Qanunda nəzərdə tutulan hallarda ictimai təhlükəsizlik mənafeləri üçün, ictimai qaydanın təmin edilməsi, sağlamlığın, mənəviyyatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün uşağın dini etiqad azadlığına məhdudiyyətlər qoyula bilər.

«Uşağın təhsil hüququ» adlanan 25-ci maddədə bildirilir ki, sağlamlıq imkanları məhdud uşaqların təhsili sahəsində yaranan münasibətlər «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Qanunla tənzimlənir və xüsusi təhsilin təşkilati-hüquqi və iqtisadi əsasları müəyyən edilir.

Mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrində uşaqlara qanuna uyğun olaraq ödənişsiz tibbi və psixoloji yardım göstərilir. Təhsil müəssisələrində uşaqlar arasında hüquq pozuntularının, riskli davranışın və zərərli vərdişlərə aludəlik meyillərinin qarşısının alınması, sosial dizadaptasiyaya məruz qalmış uşaqların sosial bacarıqlarının artırılması məqsədilə profilaktik tədbirlər görülür və sağlam həyat tərzini təbliğ edən layihələr həyata keçirilir.

Uşağın əmək hüququ haqqında 27-ci maddədə vurğulanır ki, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, uşaqların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının, toksik preparatların istehsalı, daşınması, satışı və saxlanılması işlərində, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı olan və uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən digər işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır.

Uşağın istirahət hüququnun şərh olunduğu 28-ci maddədə qeyd edilir ki, dövlət uşaqların istirahət və asudə vaxtını səmərəli təşkil etmək, mədəni və yaradıcılıq fəaliyyəti ilə məşğul olmasını təmin etmək məqsədilə məktəbdənkənar təhsil müəssisələrinin, uşaq və gənclər, idman, mədəniyyət və sağlamlıq obyektlərinin və digər istirahət yerlərinin geniş şəbəkəsini yaradır və inkişaf etdirir, bu obyektlərdən ödənişsiz və güzəştli istifadə qaydalarını müəyyən edir. Əlilliyi olan, şəhid ailəsinin üzvü olan, valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar sanatoriya-kurort müalicəsi almaq üçün normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada sanatoriya-kurort yollayışları ilə təmin edilirlər.

«Hərbi münaqişələr dövründə uşaqların müdafiəsi» adlanan 30-cu maddədə deyilir ki, dövlət hərbi münaqişələrə cəlb edildiyi ərazidə olan uşaqların müdafiəsini beynəlxalq hüquq normalarına uyğun olaraq təmin etməyi öz üzərinə götürür. Hərbi qurumlar döyüş əməliyyatları zonasında olan uşaqların təhlükəsiz yerlərə köçürülməsi, onların həyatının və sağlamlığının qorunması üçün bütün mümkün imkanlardan istifadə etməlidirlər.

Qanunun 31-ci maddəsində qeyd olunur ki, fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi müvafiq qurumun müəyyən etdiyi qaydada həyata keçirilir.

Sənədin «Uşaq və ailə» adlanan 4-cü fəslində valideynlərin və onları əvəz edən şəxslərin hüquq və vəzifələri şərh edilərkən bildirilir ki, valideynlər və onları əvəz edən şəxslər uşaqların tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki və mənəvi inkişafına cavabdehdirlər. Valideynlər və onları əvəz edən şəxslər uşağı sağlam böyütməli, milli və ümumbəşəri dəyərlər əsasında tərbiyə etməli və müstəqil həyata hazırlamalıdırlar.

Qanunun «Uşaq və cəmiyyət» adlanan 5-ci fəslində uşağın sosial mühitin mənfi təsirindən qorunması maddəsində qeyd edilir ki, dövlət cinayət, zorakılıq və ya digər qanunazidd davranış nəticəsində zərər çəkmiş uşağa sağlamlığının bərpası və sosial reabilitasiyası üçün zəruri yardım göstərir.

Bildirilir ki, valideynlər və onları əvəz edən şəxslər, dövlət orqanları (qurumları), habelə uşağın təlim-tərbiyəsi ilə bağlı funksiyaları həyata keçirən təşkilatlar sağlam həyat tərzini, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının zərərlərini təbliğ etməyə borcludurlar. Uşağa alkoqollu və energetik içkilərin, tütün və tütün məmulatlarının satılması qadağandır.

43-cü maddə uşaqların sağlamlığına və inkişafına zərər vuran məlumatlardan qorunması haqqındadır. Burada deyilir ki, irqi, milli, sosial və dini ədavəti qızışdırmağa yönəlmiş, müharibəni, terrorçuluğu təbliğ edən, Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorakılıqla dəyişdirilməsinə və ərazi bütövlüyünün pozulmasına çağırışları ehtiva edən oyunları və informasiya məhsullarını, uşaqların sağlamlığına və inkişafına zərər vuran, habelə uşağın mənəvi və əxlaqi inkişafına başqa şəkildə mənfi təsir göstərən pornoqrafik materialları uşaqlar üçün nümayiş etdirmək, satmaq, bağışlamaq, çoxaltmaq, icarəyə vermək və yaymaq qadağandır. Həmçinin belə materialları yaymaq və ya reklam etmək məqsədilə uşaqları onların hazırlanmasına, əldə edilməsinə və ya saxlanmasına cəlb etmək qadağandır. Uşaqların sağlamlığına və inkişafına zərər vuran informasiyadan qorunması «Uşaqların zərərli informasiyadan qorunması haqqında» Qanunla tənzimlənir.

«Çətin həyat şəraitində olan uşaqların müdafiəsi və hüquqları» adlanan 6-cı fəsildə deyilir ki, uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya belə uşaq barədə məlumat daxil olduqda dərhal onun yaşayış yerinə və ya olduğu yerə gedilməsi, uşağın vəziyyətinin (sağlamlıq vəziyyəti, psixoloji vəziyyəti, əlilliyi müəyyən edilmiş uşağa xüsusi qayğının mövcud olub-olmaması, uşağa qarşı zorakılıq hallarının mövcud olub-olmaması və yaşayış şəraiti) ilkin müayinəsinin keçirilməsi, təcili və təxirəsalınmaz tədbirlərin görülməsi təşkil edilir.

Belə uşağa münasibətdə ilkin tibbi və (və ya) psixoloji yardımın göstərilməsi, uşağın sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduqda onun valideynlərdən (onları əvəz edən şəxslərdən) alınması ilə bağlı Ailə Məcəlləsinin 72-ci maddəsində nəzərdə tutulmuş tədbirlərin görülməsi icra olunmalı təcili və təxirəsalınmaz tədbirlərdəndir.

Dövlət valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsini təmin edir, onların təhsil, tibbi xidmət, əmlak və yaşayış sahəsi, habelə əmək hüquqları üzrə təminatlarına dair mexanizmlər müəyyən edir.

Hüquq pozuntusu törətmiş uşağın sosial reabilitasiyası uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar, əhalinin sosial müdafiəsi, təhsil, daxili işlər orqanları, tibb müəssisələri, habelə gənclərin işləri üzrə orqanlar tərəfindən «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Qanunla müəyyən edilmiş qaydada təmin edilir.

«Uşaqlar barəsində icraatın əsasları» adlanan 7-ci fəsildə bildirilir ki, uşağın iştirakı ilə və ya ona aid hər hansı məsələ ilə bağlı icraat uşağın psixoloji, sosial, emosional və fiziki sağlamlığının qiymətləndirilməsi və onun üstün mənafelərinin müəyyən edilməsi məqsədilə hərtərəfli yanaşmadan istifadə etməklə həyata keçirilir. Uşağın hüquqları ilə bağlı qərar qəbul edilərkən ona humanist mövqedən yanaşılmalı, uşağın təhsil, səhiyyə xidmətlərinə və sosial müdafiə tədbirlərinə maneəsiz çıxış imkanının olması nəzərə alınmalıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 371-VIIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin «Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası»nın təsdiq edilməsi haqqında» 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanında və «Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası»nın təsdiq edilməsi haqqında» 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamında dəyişiklik edilməsi və «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanının ləğv edilməsi haqqında Fərman da imzalayıb.

Qanunun müxtəlif maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini kimin həyata keçirməsi Fərmanla müəyyən edilib. O cümlədən, Səhiyyə Nazirliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin də üzərinə müəyyən səlahiyyətlər qoyulub.

# Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» 2018-ci il 20 dekabr tarixli 418 nömrəli və «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında» 2023-cü il 1 may tarixli 2130 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

***Azərbaycan Respublikası Prezidentinin Fərmanı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2575 (Cild I); 2024, № 12 (II kitab), maddə 1360) 3.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

«3.2. TƏBİB-in Müşahidə Şurası Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisindən (sədr olmaqla), Azərbaycan Respublikası maliyyə nazirinin müavinindən, Azərbaycan Respublikası səhiyyə nazirinin müavinindən, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinindən və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədrindən ibarət tərkibdə formalaşdırılır;».

**2.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 634 (Cild I) ilə təsdiq edilmiş «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi»nin 4.4-cü bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

«Şuranın tərkibinə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi (sədr olmaqla), Azərbaycan Respublikası maliyyə nazirinin müavini, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri daxildir.».

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 8 aprel 2026-cı il*

# «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi

**Müşahidə Şurasının üzvləri:**

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 8 aprel 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş «Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği»ndə dəyişiklik edilməsi barədə

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI***

**Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, «Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 oktyabr tarixli 736 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 50 (Cild I); 2024, № 5 (II kitab), maddə 579, № 9, maddə 1067) ilə təsdiq edilmiş «Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği»nə aşağıdakı məzmunda 2.1.9-cu yarımbənd əlavə edilsin:

«2.1.9. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən olunmuş tarif (vəzifə) maaşlarına Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydada 1,5-3 dəfə artım əmsalları tətbiq edilir.».

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 15 aprel 2026-cı il*

# «Narkoloji xidmət və nəzarət haqqında» Qanuna təklif edilən dəyişikliklər təsdiqlənib

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirildiyinə görə, parlamentin yaz sessiyasının aprel ayında keçirilmiş ilk plenar iclasında birinci oxunuşda təqdim olunan qanun layihələri arasında Əmək Məcəlləsində və «Narkoloji xidmət və nəzarət haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib.**



Komitə sədri bildirib ki, qanun layihəsi «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı»nın icrası ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə hazırlanıb. Bu məqsədlə Əmək Məcəlləsinin 4 maddəsinə 6 dəyişiklik təklif olunub. Məcəllənin 48-ci maddəsinin 5-ci bəndinə 5-2 və 5-3 yarımbəndləri əlavə edilir. Yeni müddəalarda narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə qəbul edilərkən işçinin dövlət narkoloji tibb müəssisəsi tərəfindən verilmiş tibbi müayinə haqqında rəy təqdim etməsi, işçilərin əmək funksiyasını yerinə yetirməsi zamanı əsaslı şübhələr yarandığı halda işəgötürənin hesabına müvafiq dövri və ya növbədənkənar icbari tibbi müayinədən keçirilməsi məsələlərinin tənzimlənməsi öz əksini tapıb.

Habelə, dəyişikliyə əsasən Əmək Məcəlləsinin 74-cü maddəsində qeyd olunan peşə və vəzifələr üzrə narkoloji xəstə olduğu müəyyən edilən şəxslə əmək müqaviləsinin bağlandığı aşkar edildikdə və ya əmək münasibətləri dövründə tibbi müayinə zamanı şəxsin narkoloji xəstə olması müəyyən edildikdə, tərəflərin iradəsindən asılı olmayan əsas kimi işçinin əmək müqaviləsinə xitam verilməsi nəzərdə tutulur.

«Narkoloji xidmət və nəzarət haqqında» Qanunun 24.3-cü maddəsinə də uyğunlaşma xarakterli «işçinin davranışında narkotik maddənin təsiri altında olmasına əsaslı şübhələr yarandığı halda dərhal, işəgötürənin vəsaiti hesabına narkoloji müayinədən keçməsi» müddəası əlavə olunub.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov layihə barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini təqdim edib.

Müzakirədən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Milli Məclisin növbəti plenar iclaslarında qanun layihəsi ikinci və üçüncü oxunuşlarda da müzakirəyə çıxarılıb və səsvermə yolu ilə qəbul edilib.

# Səhiyyə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanda akademik Zərifə Əliyevanın xatirəsini yad edib





**Azərbaycan oftalmologiya elminin görkəmli nümayəndəsi, Milli Elmlər Akademiyasının bu sahədə ilk akademiki, tibb tarixində adı əbədiləşmiş fədakar alim, qayğıkeş insan Zərifə xanım Əliyevanın anadan olmasının 103 illiyi münasibətilə səhiyyə naziri Teymur Musayev və nazirliyin rəhbərliyi Fəxri xiyabanı ziyarət ediblər.**

Nazirliyin mətbuat xidmətinin bildirdiyinə görə, əvvəlcə xalqımızın Ümummilli Lideri, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyulub.

Akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub və təzə çiçəklər düzülüb.

Görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər qoyulub.

# Leyla Əliyevanın təşəbbüsü ilə Albaniyada Xəstəxana Mərkəzinin pediatrik sedasiya otağı istifadəyə verilib

**Albaniyanın paytaxtı Tirana şəhərində yerləşən «Mother Teresa» Universitet Xəstəxana Mərkəzində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yeni təchiz olunmuş pediatrik sedasiya otağının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, bu humanitar təşəbbüs çərçivəsində Heydər Əliyev Fondu tərəfindən müasir anesteziya aparatı və sedasiya otağının tam təchiz edilməsi üçün zəruri avadanlıqlar təqdim edilib. Tibbi və cərrahi prosedurlar zamanı sedasiyaya ehtiyacı olan pasiyentlər üçün nəzərdə tutulan otağın yaradılması Albaniya dövlət xəstəxanasında pediatrik xidmətlərin keyfiyyətinin artırılmasına bir töhfədir.

Bu təşəbbüs Heydər Əliyev Fondunun uşaqların sağlamlığı və rifahına yönələn fəaliyyətinin, eləcə də Azərbaycan ilə tərəfdaş ölkələr arasında humanitar əlaqələrin möhkəmləndirilməsində fəal rolunun daha bir təsdiqidir.









Açılış tədbirində Azərbaycanın Albaniyadakı səfiri Anar Hüseynov, «Mother Teresa» Universitet Xəstəxana Mərkəzinin direktoru və tibb müəssisəsinin kollektivi iştirak ediblər.

Səfir Anar Hüseynov Azərbaycan ilə Albaniya arasında münasibətlərin əhəmiyyətini vurğulayaraq bildirib ki, belə təşəbbüslər iki ölkə arasında dostluq münasibətlərinin genişlənməsinə yönəlib.

«Mother Teresa» Universitet Xəstəxana Mərkəzinin direktoru və tibb heyəti Heydər Əliyev Fonduna təşəkkürünü ifadə edərək, bu təşəbbüsü Albaniyada pediatrik səhiyyə xidmətlərinin inkişafına töhfə kimi yüksək qiymətləndirib.

# Akademik Zərifə Əliyeva oftalmologiya sahəsində müstəsna xidmətləri ilə yadda qalıb

## *Milli Oftalmologiya Mərkəzinin 80 illik yubileyi qeyd edilib*

**Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə akademik Zərifə Əliyevanın anadan olmasının 103 illiyinə və mərkəzin 80 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.**






Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyublar. Akademik Zərifə Əliyevanın əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub və tər çiçəklər düzülüb.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə səhiyyə naziri Teymur Musayev, Milli Onkologiya Mərkəzinin Baş direktoru akademik Cəmil Əliyev, Milli Onkologiya Mərkəzinin Baş-boyun şişləri şöbəsinin onkoloq-cərrahı, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru professor Əziz Əliyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, yerli mütəxəssislər, həmçinin Rusiya, Türkiyə, İtaliya, Özbəkistan və digər ölkələrdən gələn tanınmış oftalmoloqlar iştirak ediblər.

Konfransın açılışında çıxış edən səhiyyə naziri Teymur Musayev tədbirin əhəmiyyətini vurğulayaraq bildirib: «Bu gün biz Azərbaycan oftalmologiyasının inkişaf tarixinin mühüm bir mərhələsini, elmi nailiyyətlərin, peşəkarlığın və insanlığa xidmətin parlaq nümunəsini qeyd edirik». Nazirin sözlərinə görə, akademik Zərifə Əliyevanın 12 monoqrafiyada, 160-dan çox elmi işdə, 1 ixtira və 12 səmərələşdirici təklifdə öz əksini tapan çoxistiqamətli elmi yaradıcılığının əsas mahiyyəti yalnız göz xəstəliklərinin müxtəlif bölmələrini əhatə edən elmi işlərdən deyil, problemin həllinə xüsusi yanaşma bacarığının olmasından ibarətdir. Məhz buna görə alimin elmi fəaliyyəti yalnız ölkəmizdə deyil, beynəlxalq miqyasda da yüksək qiymətləndirilib.

Teymur Musayev həmçinin qeyd edib ki, hazırda Azərbaycan səhiyyəsi ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində hər sahədə inkişaf edir: «Bu tərəqqi yolunda ən qabaqcıl mövqe tutan elmi-tibbi müəssisələrdən biri Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzidir. Bu gün biz yalnız bir elmi mərkəzin yubileyini qeyd etmirik - biz milli səhiyyəmizin inkişaf tarixində xüsusi yeri olan bir elm və təcrübə ocağının şərəfli yoluna nəzər salırıq».

Nazir vurğulayıb ki, keçmişin zəngin elmi irsi və qazanılmış təcrübə mərkəzin müasir inkişaf mərhələsinə zəmin yaradıb. Tarixi nailiyyətlər üzərində formalaşan möhkəm təməlləri olan mərkəz müasir dövrdə yeni inkişaf mərhələsinə keçib. Milli Oftalmologiya Mərkəzinin fəaliyyəti sübut edir ki, müasir səhiyyə yalnız texnologiya və biliklə deyil, həm də insanlara yaxın olmaq, onların ehtiyaclarını hiss etmək və vaxtında dəstək göstərmək bacarığı ilə ölçülür. Zərifə xanım Əliyevanın adını daşıyan bu müqəddəs ocaq, əslində, təkcə bir tibb müəssisəsi deyil, bir missiyadır. Bu missiya insanlara işıq bəxş etmək və sağlam gələcəyin təmin olunmasına xidmət etməkdir».

Sonra Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi haqqında videoçarx nümayiş etdirilib.

Daha sonra çıxış edən Mərkəzin direktoru, professor Elmar Qasımov qeyd edib ki, akademik Zərifə Əliyevanın elmi əsərləri müasir həkimlərin masaüstü kitabı kimi istifadə olunur və bir çox xarici dillərə tərcümə edilib.

Mərkəzin fəaliyyətindən bəhs edən Elmar Qasımov 23 şöbədən ibarət tibb ocağında dövlət tərəfindən lazım olan bütün tədbirlərin görüldüyünü və hər il avadanlığın yeniləndiyini deyib: «Mərkəzdə peşəkar və yüksəkpotensiallı tibb heyəti var. Milli Oftalmologiya Mərkəzinin Gəncə, Şəki və Masallı filialları fəaliyyətdədir. Artıq xəstələr Bakıya gəlmədən yaşadıqları yerlərdə müalicə ala bilirlər. Orada çalışan tibb heyəti məhz Mərkəzin təcrübəsindən keçib. Milli Oftalmologiya Mərkəzinin nəzdində iki səyyar klinika var: avtomobil və dəmiryolu səyyar klinikası. Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, bizim dəmiryolu səyyar klinikası Vətən müharibəsi zamanı bir ay ərzində cəbhə xəttində dayanıb və bütün xəstələrə lazımi müalicəni göstərib. Milli Oftalmologiya Mərkəzi həm tibb, həm elm, həm də təhsil ocağıdır».

Elmar Qasımov qeyd edib ki, bugünkü tədbir oftalmologiya sahəsində yeni elmi yanaşmaların formalaşmasına və innovativ müalicə metodlarının tətbiqinə töhfə verir: «Bu cür beynəlxalq əməkdaşlıq həm klinik təcrübənin zənginləşdirilməsi, həm də yeni texnologiyaların ölkəmizdə tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir».

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli isə çıxışında bildirib ki, akademik Zərifə Əliyevanın elmi fəaliyyəti Azərbaycan tibb elminin beynəlxalq nüfuzunun artmasına böyük töhfə verib və bu irs gələcək nəsillər üçün mühüm elmi məktəb rolunu oynayır.

Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov çıxışında səhiyyə sahəsində aparılan islahatların və beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Türk Cümhuriyyətləri Oftalmologiya Dərnəyinin sədri professor Öner Gelişken akademik Zərifə Əliyevanın elmi məhsuldarlığını, bununla yanaşı, insanyönümlü yanaşmasının, etik dəyərlərin bu gün də həkimlər üçün nümunə olduğunu diqqətə çatdırıb.






Konfrans çərçivəsində Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində Göz Bankının rəsmi açılışı da olub.

Beynəlxalq konfransda oftalmologiyanın aktual məsələləri geniş şəkildə müzakirə edilib. Yerli və xarici mütəxəssislər oftalmologiya sahəsində qlobal yeniliklər barədə fikirlərini, müasir tibbi texnologiyalar, diaqnostika və müalicə üsulları üzrə təcrübələrini bölüşüblər.

Tədbir çərçivəsində Milli Göz Bankının Azərbaycanda keratoplastika xidmətlərinin inkişafındakı rolu, donor mərhələsindən buynuz qişanın transplantasiyasına qədər olan proses, donorolma motivasiyası, həmçinin müxtəlif keratoplastika üsulları və onların uzunmüddətli nəticələri diqqət mərkəzində olub. Eyni zamanda, dərin ön lamellyar keratoplastikadan sonra göz yaşı təbəqəsində iltihabi və antiiltihabi sitokinlərin qiymətləndirilməsi, eləcə də endotelial keratoplastika zamanı optimal nəticələrin biomarkerləri kimi elmi mövzular da təqdim edilib.

Konfrans çərçivəsində aparılan müzakirələr həm nəzəri biliklərin, həm də praktiki təcrübənin paylaşılmasına şərait yaradıb. Aparılan elmi diskussiyalar oftalmologiya sahəsində yeni yanaşmaların formalaşmasına töhfə verəcək.

# «Ətraf mühitin çirklənməsinin insan sağlamlığına təsirinin azaldılması əsas prioritetlərindən biridir»

*Səhiyyə naziri Astanada Regional Ekoloji Sammitdə keçirilən çıxış edib*




**Qazaxıstanın paytaxtı Astana şəhərində Regional Ekoloji Sammit keçirilib. Azərbaycanın səhiyyə naziri Teymur Musayev sammitdə iştirak edib.**




Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, sammit çərçivəsində «Gələcək nəsillərin qorunması: Sağlamlıq ekoloji gündəliyin mərkəzində - Aralətrafı ərazilər və Xəzər regionu üzrə çıxarılan dərslər və həll yolları» mövzusunda nazirlərin panel sessiyası keçirilib.

Tədbirin açılışında Qazaxıstanın Baş nazirinin müavini Aida Balayeva və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus çıxış ediblər. Panel sessiyasında ÜST-nin Avropa üzrə regional direktoru Hans Klüge Aral regionunda sağlamlıq və dayanıqlı inkişaf üzrə Yol Xəritəsinin təqdimatını edib.

Azərbaycanın səhiyyə naziri Teymur Musayev sammit çərçivəsində keçirilən nazirlər səviyyəsində panel sessiyasında «Aral və Xəzərətrafı ərazilərin sağlam gələcəyi naminə siyasi dəstək və regional öhdəliklər» mövzusunda çıxış edib.

Teymur Musayev qeyd edib ki, qlobal istiləşmə su hövzələrinin istilik strukturunu və oksigen səviyyəsini dəyişərək su biomüxtəlifliyinə birbaşa təsir göstərir: «Bu təsirlər yalnız ekoloji deyil, eyni zamanda, ciddi ictimai sağlamlıq riskləri yaradır. Əhali çirklənmiş suya daha çox məruz qalır ki, bu da mədə-bağırsaq xəstəliklərinin, kimyəvi zəhərlənmələrin və uzunmüddətli sağlamlıq fəsadlarının artmasına səbəb olur».

Nazir vurğulayıb ki, ətraf mühitin çirklənməsinin insan sağlamlığına təsirinin azaldılması Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir: «Prezident İlham Əliyevin rəhbərliyi altında Bakıda keçirilmiş COP29 iqlim və sağlamlıq gündəmlərinin sıx bağlı olduğunu bir daha nümayiş etdirib».

Teymur Musayev Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə ölkə üzrə hava keyfiyyətinin monitoringinin həyata keçirdiyini də diqqətə çatdırıb. Xəzər dənizinin su keyfiyyəti ilə bağlı məsələdə səhiyyə naziri regional və sərhədlərarası əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib: «Qapalı su hövzələri ortaq resurslar olduğu üçün onların idarə olunması koordinasiyalı yanaşma tələb edir. Xəzər dənizinin sahilboyu ərazilərində biomüxtəlifliyin qorunması üçün tətbiq edilən əsas strategiyalardan biri xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və effektiv idarə olunmasıdır. Hazırda Azərbaycanın sahil zonasında dörd Milli Park fəaliyyət göstərir», - deyə nazir diqqətə çatdırıb.

Regional Ekoloji Sammit çərçivəsində keçirilən sessiyada Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Türkmənistanın səhiyyə nazirləri də çıxış ediblər.

Tədbirin yekunu olaraq Mərkəzi Asiya ölkələri və Azərbaycan tərəfindən birgə bəyanat qəbul edilib. Bu sənəd regionda iqlim dəyişiklikləri, ətraf mühit və insan sağlamlığının qorunması istiqamətində birgə fəaliyyətin genişləndirilməsini nəzərdə tutur.

Sammit çərçivəsində ikitərəfli görüşlər keçirilib, ətraf mühit və sağlamlıq sahəsində əməkdaşlığın gücləndirilməsinə yönəlmiş müzakirələr aparılıb, Qazaxıstanın aparıcı tibb müəssisələrinə tanışlıq səfərləri təşkil olunub.

Tədbir səhiyyə və ətraf mühit sahələrində regional əməkdaşlığın gücləndirilməsi və birgə təşəbbüslərin təşviqi baxımından mühüm beynəlxalq platforma kimi qiymətləndirilir.

# Azərbaycan və BƏƏ səhiyyə sahəsində əməkdaşlığı genişləndirir



**Səhiyyə naziri Teymur Musayev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər Nazirliyinin dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan Teymur Musayev Prezident İlham Əliyevin BƏƏ-yə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana, o cümlədən Qarabağa səfərlərini, bu səfərlər zamanı aparılan müzakirələrin iki ölkə arasında əlaqələrin genişləndirilməsində mühüm rol oynadığını vurğulayıb.

Nazir Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında müxtəlif sahələrdə, o cümlədən səhiyyə sektorunda əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd edib. O, ölkəmizdə səhiyyə sisteminin modernləşdirilməsi, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və rəqəmsal səhiyyə həllərinin tətbiqi istiqamətində həyata keçirilən islahatlardan bəhs edib.

Öz növbəsində Səid bin Mübarək Əl-Haciri göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəsinin Azərbaycan ilə səhiyyə sahəsində əməkdaşlığın daha da genişləndirilməsinə hazır olduğunu vurğulayıb.

Görüş zamanı tərəflər səhiyyə sahəsində əməkdaşlığın cari vəziyyətini və gələcək inkişaf perspektivlərini geniş müzakirə ediblər. Xüsusilə innovativ tibbi texnologiyaların tətbiqi, səhiyyə infrastrukturunun inkişafı, tibbi xidmətlərin keyfiyyətinin artırılması, rəqəmsal səhiyyə sistemlərinin qurulması diqqət mərkəzində olub. Bununla yanaşı, tibbi kadrların hazırlanması və ixtisasartırma proqramları, tədqiqat və innovasiya sahəsində əməkdaşlıq, eləcə də qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Sonda tərəflər bu cür görüşlərin qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb, gələcəkdə əlaqələrin daha da genişləndirilməsi və konkret layihələr üzrə işlərin davam etdirilməsi barədə razılığa gəliblər.

# Səhiyyə naziri Azərbaycanda «İmmunlaşdırma həftəsi»nin keçirilməsi barədə əmr imzalayıb

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyəsinə əsasən, 2026-cı ilin 19-25 aprel tarixlərində Azərbaycanın şəhər və rayonlarında «İmmunlaşdırma həftəsi» keçirilib. Bununla bağlı səhiyyə naziri Teymur Musayev əmr imzalayıb.**




Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilir ki, əmrdə ölkənin bütün şəhər və rayonlarında hər hansı səbəbə görə vaksinasiyadan kənarda qalan uşaqların «İmmunlaşdırma həftəsi» çərçivəsində peyvəndlərə cəlb edilməsi, peyvəndlərlə əhatə səviyyəsinin xüsusilə aşağı olan rayonlarda monitorinqlərin aparılması, uşaqların vaksinasiyasını həyata keçirən tibb müəssisələrinə immunlaşdırma tədbirlərinin təşkilində metodiki köməkliyin göstərilməsi, əhalinin bu barədə maarifləndirilməsi kimi məsələlərin təşkili nəzərdə tutulub.

Əmrə uyğun olaraq, «İmmunlaşdırma Həftəsi» zamanı bir sıra rayonlarda silsilə tədbirlər keçirilib. Müvafiq mövzularda poster və yaddaş vərəqələri hazırlanaraq ölkənin tibb idarə və müəssisələrində əhaliyə paylanıb.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən hər il ÜST-nin Avropa regionu ölkələrində «İmmunlaşdırma həftəsi» keçirilir və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi də bu tədbirə qoşulur.

# Səhiyyə naziri «Yüksəliş» müsabiqəsi qalibinin ideya və təşəbbüsləri ilə tanış olub

**Səhiyyə sektorunda insan kapitalının gücləndirilməsi istiqamətində görülən işlər çərçivəsində səhiyyə naziri Teymur Musayev V «Yüksəliş» müsabiqəsinin qalibi Ramil Hüseynzadə ilə görüşüb.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı səhiyyə sistemində həyata keçirilən yeniliklər, idarəçilikdə müasir yanaşmalar, rəqəmsal transformasiya və kadrların inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir «Yüksəliş» müsabiqəsi kimi layihələrin əhəmiyyətini vurğulayıb, onun iştirakçısı olan gənc mütəxəssislərin peşəkar yüksəlişinə verilən dəstəyin dövlət üçün prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. Teymur Musayev bildirib ki, «Yüksəliş» müsabiqəsi istedadlı və perspektivli gənclərin üzə çıxarılmasında mühüm rol oynayır, həmçinin onların dövlət idarəçiliyində aktiv rol oynamasına şərait yaradır. O, səhiyyə sahəsində aparılan yeniliklərin uğurla tətbiqində təşəbbüskar və peşəkar kadrların xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Görüş çərçivəsində idarəetmə mexanizmlərinin daha da təkmilləşdirilməsi, tibbi xidmətlərin səviyyəsinin yüksəldilməsi və innovativ həllərin tətbiqi ilə bağlı geniş müzakirələr aparılıb. Səhiyyə naziri müsabiqə qalibinin irəli sürdüyü ideya və təşəbbüsləri diqqətlə dinləyib, ona gələcək fəaliyyətində nailiyyətlər arzulayıb.

# On saatlıq unikal əməliyyat:

## *Pasiyentin öz sümüyü ilə yeni çənə quruldu*

**Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərən Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində aşağı çənənin bərpası üzrə unikal və yüksək texnoloji cərrahi əməliyyat uğurla icra olunub.**





Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, bu əməliyyat mərkəzdə ilk dəfə olaraq 2026-cı ilin mart ayında Səhiyyə Nazirliyinin tapşırığı ilə yaradılmış Plastik və rekonstruktiv cərrahiyyə şöbəsinin həkimləri tərəfindən icra edilib.

Əməliyyat təxminən 10 saat davam edib və bir neçə ixtisas üzrə cərrahi briqadaların iştirakı ilə həyata keçirilib. Baş-boyun nahiyəsi üzrə əməliyyat üz-çənə cərrahı-onkoloq, tibb elmləri doktoru, professor Məhəmməd Davudov və şöbə müdiri, plastik-rekonstruktiv cərrah, tibb elmləri doktoru Elçin Məmmədov tərəfindən icra edilib.

Mikrocərrahi transplantasiya mərhələsi isə üz-çənə cərrahı, tibb üzrə fəlsəfə doktoru Kamil Abdullayev və üz-çənə cərrahı Vəlican Abasov tərəfindən həyata keçirilib.

Əməliyyatın uğuru dəqiq rəqəmsal planlaşdırma, ixtisaslaşmış tibbi avadanlıqlar, anesterioloqların, onkoloqların, üz-çənə və plastik-rekonstruktiv cərrahların koordinasiyalı fəaliyyəti nəticəsində mümkün olub.

İl yarım əvvəl pasiyentə baş-boyun nahiyəsində yerləşən geniş yayılmış bədxassəli törəmə səbəbi ilə əməliyyat edilib, aşağı çənənin yarısı çıxarılıb və onun yerinə titan konstruksiya yerləşdirilib. Müasir tibbi texnologiyaların tətbiqi sayəsində həyata keçirilən son əməliyyat zamanı əvvəlcədən qoyulmuş titan lövhə çıxarılıb, aşağı çənənin yarısı pasiyentin öz sümüyü - fibula (incik sümüyü) vasitəsilə yenidən qurulub.

Mikrocərrahi üsulla icra olunan rekonstruksiya zamanı sümük strukturu pasiyentin ayağından götürülərək üz nahiyəsinə transplantasiya edilib və damarlar yüksək dəqiqliklə birləşdirilib. Bu yanaşma onkoloji əməliyyat nəticəsində itirilmiş üz nahiyəsinin həm funksional, həm də estetik baxımdan bərpasına imkan verir. Mütəxəssislərin sözlərinə görə, gələcək mərhələdə bərpa olunmuş sümüyə dental implantların yerləşdirilməsi planlaşdırılır ki, bu da pasiyentin həyat keyfiyyətinin tam bərpasına şərait yaradacaq.

Mərkəzdə bu kimi yüksək texnologiyalı əməliyyatların icrası ölkədə rekonstruktiv cərrahiyyənin inkişafına və vətəndaşların müasir tibbi xidmətlərə çıxış imkanlarının genişlənməsinə mühüm töhfə verir.

# 7-ci Beynəlxalq Bariatrik-Metabolik cərrahiyyə və Metabolik xəstəliklər konqresi keçirildi

**Bariatrik-metabolik cərrahiyyə cərrahiyyənin nisbətən yeni bir istiqamətidir. Tarixə baxsaq, keçən əsrin 60-cı illərindən bariatrik əməliyyatlar tətbiq olunmağa başlayıb. Lakin 90-cı illərdən etibarən bariatrik əməliyyatlar daha geniş vüsət alıb ki, bu da cərrahiyyəyə laparoskopik texnologiyanın gəlişi ilə bağlı olub. Hazırda yaşadığımız XXI əsrdə laparoskopik icra edilən bariatrik və metabolik cərrahiyyə artıq cərrahiyyə elminin və gündəlik praktikanın rutin istiqamətidir. Bu istiqamətdə bizim əsas hədəf pasiyentimiz artıq bədən çəkisi olan insanlardır.**




AZƏRTAC xəbər verir ki, bunu səhiyyə nazirinin müavini Nadir Zeynalov Azərbaycan Bariatrik Metabolik Cərrahlar Assosiasiyasının təşkilatçılığı ilə keçirilən 7-ci Beynəlxalq Bariatrik-Metabolik cərrahiyyə və Metabolik xəstəliklər konqresində çıxışı zamanı deyib.

Nazir müavini bildirib ki, artıq bədən çəkisi insanın təkcə estetik görünüşünü pozmur, bundan başqa, sağlamlıqla bağlı olan müxtəlif problemləri, xüsusilə də metabolik sindromu ortaya çıxarır: «Bariatrik və metabolik əməliyyatlar pasiyentlərin müalicəsində və onların həyatında tamamilə yeni bir səhifə açır ki, bundan sonra onlar daha uzun, daha sağlam və daha gözəl bədənlə yaşaya bilirlər. Çox vacib məqam ondan ibarətdir ki, həmin pasiyentlər bariatrik-metabolik əməliyyatlardan sonra vaxtından əvvəl ölüm faizi ilə daha az rastlaşırlar, yəni vaxtından əvvəl - preterm ölümlərin qarşısı 30-50 faiz hallarda alınır. Bu da ictimai səhiyyə üçün çox vacib məqamdır».

Nadir Zeynalovun sözlərinə görə, bariatrik və metabolik cərrahiyyənin inkişafı özü ilə bəzi məsələləri ortaya çıxardı: «Birincisi, bəzi cərrahi prosedurlardan fərqli olaraq, bariatrik cərrahiyyə bir cərrahın işi deyil. Burada hökmən multidisiplinar yanaşma və bir komanda işi tələb olunur. Yəni prosesə cərrahdan başqa, müxtəlif digər mütəxəssislər də cəlb olunmalıdır. Diyetoloqlar, endokrinoloqlar, psixoloqlar, bəzən psixiatrlar və digərləri də bir pasiyentin müalicəsinə qoşulurlar ki, istənilən və dayanıqlı nəticə əldə olunsun. Başqa bir məsələ ondan ibarətdir ki, bariatrik əməliyyatlardan estetik nəticə əldə olunduğuna görə, bəzi hallarda ya həmin əməliyyatların həyata keçirilməsinə göstərişlər düzgün qoyulmur, ya da tibbi göstəriş olmadan aparılır. Ona görə də nəticə bir çox hallarda ürəkaçan olmur. Bariatrik və metabolik əməliyyatlara göstərişlərin, pasiyentin, əməliyyat növünün düzgün seçilməsi ilə istənilən nəticələri əldə edə bilərik».

Bariatrik və metabolik cərrahiyyənin çox dinamik, inkişaf edən bir sahə olduğunu diqqətə çatdıran nazir müavini hər il yeniliklərin olduğunu, on il bundan əvvəlki yanaşmaların indi dəyişdiyini qeyd edib: «Cəmi 3-4 il əvvəl, 2022-ci ildə yeni meyarlar, əməliyyat seçimi üçün yeni qaydalar ortaya çıxıb. Hər il bu sahəyə yeniliklər gəlir ki, cərrahi və qeyri-cərrahi profilli mütəxəssislər bununla ayaqlaşmalıdırlar. Onlar daim üzərlərində işləməli, peşəkar şəkildə inkişaf etməlidirlər. Peşəkarlığın artırılması üçün çox yaxşı vasitələrdən biri məhz bugünkü konqres və bu konqres kimi tədbirlərdir. Konqresə müxtəlif ölkələrdən çoxsaylı iştirakçılar qatılıb. Ondan artıq ölkədən 70-dən çox iştirakçı gəlib, onların təqribən yarısı qədər də məruzəçi var. Bu da konqresin həqiqətən beynəlxalq statusunu təsdiqləyir. Hesab edirəm ki, konqres həm yerli, həm xaricdən gəlmiş mütəxəssislərin öz elmi biliklərini, ən yaxşı təcrübələrini paylaşmaları, ölkələr arasında əlaqələrin qurulması baxımından çox faydalı platformadır».

# Səhiyyə Nazirliyinin yeni Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasına mediatur keçirilib




**Səhiyyə Nazirliyinin dəstəyi ilə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) nəzdində yeni Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikası yaradılıb. Yeni klinika ölkə vətəndaşlarına beynəlxalq standartlara uyğun rekonstruktiv və estetik cərrahiyyə xidmətləri göstərəcək.**

Səhiyyə Nazirliyi fəaliyyətə başlayan yeni klinikaya mediatur təşkil edib. Bu barədə nazirliyin mətbuat xidmətinin xəbərində deyildiyinə görə, mediatur zamanı jurnalistlərə məlumat verən Əziz Əliyev adına ADHTİ-nin rektoru Nazim Pənahov bildirib ki, bu klinikanın yaradılması Azərbaycan tibb tarixində yeni mərhələdir: «Bu klinikanın yaradılması ölkəmizdə yüksək texnologiyalı tibbin inkişafı istiqamətində dövlət siyasətinin ardıcıl şəkildə həyata keçirildiyini bir daha nümayiş etdirir. Klinika həm tibbi xidmətlərin keyfiyyətini əhəmiyyətli dərəcədə artıracaq, həm də ixtisaslı kadrların hazırlanmasına güclü töhfə verəcək».

Nazim Pənahov qeyd edib ki, klinikanın yaradılması ölkədə plastik və rekonstruktiv cərrahiyyəyə artan tələbatdan irəli gəlir: «Travmalar, yanıqlar, onkoloji əməliyyatlardan sonra bərpa ehtiyacının çoxalması və estetik cərrahiyyəyə marağın yüksəlməsi belə ixtisaslaşmış mərkəzin yaradılmasını zəruri edib. Yeni klinika vətəndaşların müalicə üçün xarici ölkələrə getməsinin qarşısını alacaq və beynəlxalq standartlara uyğun tibbi xidməti ölkə daxilində təmin edəcək» .

Klinikanın yaxın günlərdə fəaliyyətə başlayacağını deyən rektor bildirib ki, burada plastik və rekonstruktiv əməliyyatlar icbari tibbi sığorta hesabına həyata keçiriləcək. Buraya yanıqdan, qəzadan sonra bərpa əməliyyatları, dovşandodaq, qurdağız əməliyyatları, əl cərrahiyyəsi, süd vəzinin rekonstruktiv əməliyyatları, mikro və super cərrahi əməliyyatlar aiddir. Estetik əməliyyatlar isə pasiyentlərin öz hesabına həyata keçiriləcək.

Klinikanın baş həkimi Dilqəm Məmmədov mediatur zamanı jurnalistlərə bildirib ki, tibb müəssisəsi yüksək ixtisaslı tibbi xidmətə əlçatanlığı təmin edəcək, əlillik hallarını və funksional itkiləri azaltmağa, pasiyentlərin həyat keyfiyyətini yaxşılaşdırmağa xidmət edəcək: «Burada psixoloji və sosial reabilitasiya xidmətləri göstəriləcək, estetik problemlərin həlli insanların özünəinamının artmasına dəstək verəcək».

Dilqəm Məmmədov qeyd edib ki, klinika tədris və praktikanın inteqrasiyası ilə fərqlənir. O, rezidentura və ixtisasartırma bazası kimi fəaliyyət göstərəcək, müxtəlif tibb sahələri üzrə mütəxəssislərlə multidisiplinar əməkdaşlıq quracaq. Müasir texnologiyalar, beynəlxalq protokollar və elmi-tədqiqat işləri burada əsas prioritet olacaq.

Klinikada rekonstruktiv, estetik və mikrocərrahiyyə əməliyyatları, yanıq və postyanıq rekonstruksiyası, onkoplastik və travma sonrası bərpa cərrahiyyəsi, kraniofasial və əl cərrahiyyəsi, dəri və yumşaq toxuma defektlərinin örtülməsi, süd vəzisi və üz rekonstruksiyası, rinoplastika, blefaroplastika, mammoplastika, liposaksiya, abdominoplastika, üz gərmə kimi estetik əməliyyatlar icra olunacaq.

Klinika peşəkar komanda ilə təchiz olunub. Burada yüksək ixtisaslı plastik cərrahlar, anestezioloq-reanimatoloqlar, reabilitoloqlar, psixoloqlar və beynəlxalq təlim keçmiş mütəxəssislər fəaliyyət göstərəcək. Gənc həkim-mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetiriləcək.

Müasir əməliyyatxanalar, mikrocərrahiyyə avadanlıqları, lazer və endoskopik sistemlər, 3D planlama və görüntüləmə texnologiyaları, reanimasiya və intensiv terapiya avadanlıqları klinikanın texniki bazasını təşkil edir.

Klinikanın fəaliyyəti Azərbaycan səhiyyəsində plastik və rekonstruktiv cərrahiyyənin inkişafına ciddi impuls verəcək və əhalinin sağlamlığının qorunmasına mühüm töhfə olacaq.

Baş həkim həmçinin bildirib ki, Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasında həyata keçiriləcək estetik əməliyyatların qiyməti özəl klinikalardan fərqlənəcək: «Dövlət klinikasının təməl məqsədi xalqa xidmət etməkdir, yəni heç bir dövlət xəstəxanasının kommersiya məqsədi yoxdur. Estetik əməliyyatlarda qiymət məsələsini dövlət tənzimləyəcək. Məlumdur ki, özəl klinikalarda estetik əməliyyatlar pasiyentin öz hesabına icra edilir. Ancaq dövlət xəstəxanasında qiymətlər fərqli olacaq. Həmçinin qeyd edim ki, məsələn, hər müraciət edən pasiyentin üzərində burun əməliyyatı icra edilmir. Əməliyyat üçün ilk növbədə, tibbi göstəriş olmalıdır. Məsələn, pasiyentdə nəfəs darlığı, sinus və burun cibləri problemi varsa, o zaman əməliyyatı həyata keçiririk. Həkim heyəti əməliyyatın lazım olub-olmamasına qərar verir».

Baş həkim klinikada ilk dəfə həyata keçirilməsi planlaşdırılan əməliyyat barədə də məlumat verib. O bildirib ki, bu əməliyyatın qadın pasiyent üzərində aparılması nəzərdə tutulur: «Beyin şişi aşkarlanmış xəstəyə mikrotoxuma ilə toxuma transplantasiyası əməliyyatı icra ediləcək».

Dilqəm Məmmədov bildirib ki, klinika fasiləsiz fəaliyyət göstərəcək. Burada daimi olaraq 9 plastik cərrah çalışacaq. Ümumilikdə isə ştat cədvəlinə əsasən klinikanın 104 nəfər personalı olacaq. 42 çarpayılıq klinikanın 9 çarpayılıq Reanimasiya şöbəsi var. O vurğulayıb ki, klinikanın əsas fəaliyyət istiqaməti rekonstruktiv (bərpaedici) əməliyyatlardır: «Məqsəd yalnız xarici görünüşü dəyişmək deyil, insanın zədələnmiş və ya itirilmiş bədən hissəsini mümkün qədər əvvəlki vəziyyətinə qaytarmaqdır».

Onun sözlərinə görə, rekonstruktiv əməliyyatlar əsasən qəza və travmalardan sonra alınan xəsarətlərlə bağlı aparılır: «Alınan travmalar nəticəsində üz, əl və ya bədənin başqa hissəsində deformasiya yaranarsa, biz həmin nahiyəni yenidən formalaşdırırıq. Yanıq hallarından sonra dəri büzüşür, hərəkət məhdudlaşa bilər. Bu zaman xüsusi əməliyyatlarla həm görünüş, həm də hərəkət funksiyası bərpa olunur.




Onkoloji əməliyyatlardan sonra, məsələn, süd vəzi xərçəngi səbəbi ilə döş götürüldükdən sonra yenidən formalaşdırılması (rekonstruksiya) aparılır ki, pasiyent həm fiziki, həm də psixoloji olaraq özünü daha yaxşı hiss etsin. Anadangəlmə qüsurlar, o cümlədən dodaq-damaq yarığı kimi problemlər əməliyyatla düzəldilir, uşaq normal danışıq və qidalanma funksiyasına qovuşur».

Baş həkim qeyd edib ki, bu əməliyyatlar yalnız görünüş deyil, insanın normal yaşaması üçün vacibdir. «Bununla yanaşı, klinikada estetik əməliyyatlar da həyata keçiriləcək. Bu əməliyyatlar daha çox insanın öz görünüşündən razı qalması və özünəinamının artması üçün edilir. Bu estetik əməliyyatlara burun (rinoplastika), göz qapağı, qarın (abdominoplastika), piylərin götürülməsi (liposaksiya), süd vəzi əməliyyatları aiddir. Həmçinin minimal prosedurlar olan iynə vasitəsilə edilən botoks və dolğularla qırışlar azaldılır və üzə daha təravətli görünüş verilir. Biz estetik əməliyyatlarda da çalışırıq ki, nəticə təbii görünsün və insanın özünə uyğun olsun, yəni süni dəyişikliklərdən uzaq dururuq. Hədəf pasiyent auditoriyamız genişdir - həm sağlamlığını bərpa etmək istəyən pasiyentlər, həm də görünüşünü yaxşılaşdırmaq istəyən şəxslər bizə müraciət edə bilərlər. Amma bizim üçün tibbi zərurəti olan rekonstruktiv əməliyyatlar hər zaman daha ön plandadır. İcbari tibbi sığorta isə əsasən məhz bu cür zəruri rekonstruktiv əməliyyatları əhatə edir. Estetik məqsədli əməliyyatlar isə hazırda bu paketə daxil deyil», - deyə o vurğulayıb.

Dilqəm Məmmədov qeyd edib ki, Azərbaycan Tibb Universitetində təhsil alan tələbələr üçün də belə bir klinikanın açılması çox faydalıdır: «Tələbələr praktiki təcrübəni real pasiyent üzərində, klinik mühitdə öyrənəcəklər. Müasir və yaxşı təşkil olunmuş klinika onların təcrübə imkanlarını genişləndirir. Bura həm də rezidentura və ixtisasartırma bazası kimi də fəaliyyət göstərəcək».

Baş həkim Klinikada psixoloji və sosial reabilitasiya xidmətlərinin də göstəriləcəyini deyib.

Dilqəm Məmmədovun sözlərinə görə, müasir əməliyyatxanalar, mikrocərrahiyyə avadanlıqları, lazer və endoskopik sistemlər, 3D planlama və görüntüləmə texnologiyaları, reanimasiya və intensiv terapiya avadanlıqları klinikanın texniki bazasını təşkil edir. Klinikanın fəaliyyəti Azərbaycan səhiyyəsində plastik və rekonstruktiv cərrahiyyənin inkişafına ciddi impuls verəcək və əhalinin sağlamlığının qorunmasına mühüm töhfə olacaq.

## Həkimləri Təkmilləşdirmə İnstitutu ilə DTX-nin Hərbi-tibb baş idarəsi əməkdaşlıq edəcək



**Səhiyyə Nazirliyi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ) ilə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Hərbi-tibb baş idarəsi (HTBİ) arasında Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, DTX-nin Hərbi-tibb baş idarəsinin inzibati binasında keçirilən mərasimdə İnstitutun rektoru, tibb elmləri doktoru, professor Nazim Pənahov, Hərbi-tibb baş idarəsinin rəisi tibb xidməti general-mayoru Rüfət Əliyev, elmi ictimaiyyətin nümayəndələri, baş idarənin kollektivi və digər qonaqlar iştirak ediblər.

Mərasimdə giriş sözü ilə çıxış edən tibb xidməti general-mayoru Rüfət Əliyev Hərbi-tibb baş idarəsinin fəaliyyət istiqamətləri, genetik araşdırmalar və elmi tədqiqat məsələləri barədə məlumat verib, HTBİ-də həkim-mütəxəssislərin və digər tibb işçilərinin peşəkar hazırlığının daha da artırılması üçün davamlı tibbi təhsilin əhəmiyyətindən bəhs edib. İdarə rəisi ADHTİ-nin ölkəmizin səhiyyə sistemi üçün mütəxəssis hazırlığında xüsusi rol oynadığını, institutun inkişafının görkəmli alim və dövlət xadimi Əziz Əliyevin adı ilə sıx şəkildə bağlı olduğunu vurğulayıb. Akademiklər Zərifə Əliyeva, Mirməmməd Cavadzadə, Cəmil Əliyev və digər alimlərin fəaliyyətinin institutun ən parlaq səhifələrindən olduğunu bildirib. İnstitutda son dövrlər elmi-pedaqoji fəaliyyətin gücləndirildiyini, innovativ tədris metodlarının tətbiq edildiyini və tibbi təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində həyata keçirilən işlərdən söz açıb.

Əziz Əliyev adına ADHTİ-nin rektoru professor Nazim Pənahov institutun böyük elmi irsə və ənənələrə malik qədim elmi müəssisə kimi səhiyyə sisteminə qazandırdığı nailiyyətlərdən danışıb, davamlı tibbi təhsilin təşviqi istiqamətində institutun uğurla irəlilədiyini vurğulayıb. ADHTİ-nin keçdiyi şərəfli yol və beynəlxalq əməkdaşlıq əlaqələri barədə geniş söz açan rektor tanınmış alimlərin institutun geniş şöhrət qazanmasındakı rolunu qeyd edib. O, Anlaşma Memorandumunun imzalanmasının tibb işçilərinin peşəkarlığının daha da artırılması, qarşılıqlı faydalı əməkdaşlığın qurulması və birgə layihələrin icrası üçün yaxşı perspektivlər yaratdığını bildirib.

## Uşaqlarda vərəmin qarşısının alınması yolları müzakirə edildi

**Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun təşkilatçılığı və Professor Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm və Tənəffüs Orqanları Xəstəlikləri Sanatoriyasının dəstəyi ilə «Uşaqlarda vərəmin profilaktikasına müasir yanaşmalar» mövzusunda tədbir keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə sanatoriyanın direktoru Rəşid Bədəlov uşaqlar arasında vərəmlə mübarizə sahəsində son illər mühüm nailiyyətlərin əldə olunduğunu bildirib. Onun sözlərinə görə, sanatoriya şəraitində aparılan kompleks müalicə və reabilitasiya tədbirləri uşaqların sağlamlığının bərpasında mühüm rol oynayır. Direktor erkən diaqnostika və düzgün təşkil edilmiş profilaktik tədbirlərin xəstəliyin yayılmasının qarşısının alınmasında əsas amillər olduğunu qeyd edib.

Ümumdünya Səhiyyə Təşkilatının nümayəndəsi Cəvahir Süleymanova vurğulayıb ki, uşaqlarda vərəmin profilaktikası qlobal səhiyyə gündəliyinin prioritet istiqamətlərindən biridir. O qeyd edib ki, beynəlxalq təcrübədə risk qruplarının müəyyənləşdirilməsi, peyvəndləmə və maarifləndirmə tədbirləri xüsusi əhəmiyyət daşıyır.

Səhiyyə Nazirliyinin İctimai səhiyyə və sanitariya-epidemioloji nəzarəti şöbəsinin müdiri Nəzifə Mürsəlova deyib ki, əhali arasında məlumatlandırma işlərinin genişləndirilməsi, xüsusilə valideynlərin maarifləndirilməsi uşaqların sağlamlığının qorunmasına mühüm töhfə verir.

Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun baş direktoru İradə Axundova elmi yanaşmaların və innovativ müalicə metodlarının tətbiqinin vacibliyini diqqətə çatdırıb. O bildirib ki, institut tərəfindən aparılan tədqiqatlar vərəmin erkən aşkarlanması və effektiv müalicə üsullarının müəyyən olunmasına yönəlib.

Milli Məclisin deputatları Soltan Məmmədov və İlham Məmmədov qeyd ediblər ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən səhiyyə sahəsinə göstərilən diqqət və qayğı vərəmlə mübarizədə də özünü göstərir. Bildirilib ki, qanunvericilik səviyyəsində qəbul edilən qərarlar bu sahədə tədbirlərin daha effektiv həyata keçirilməsinə şərait yaradır.

Tədbir çərçivəsində «Uşaqlarda vərəmin sanator müalicəsinə müasir baxış» və «Mikroblar haqqında nə bilirik?» mövzuları ətrafında geniş müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Tədbir bədii hissə ilə yekunlaşıb.

## Səhiyyə Nazirliyinin 9109 «Çağrı Mərkəzi»

## 3 il fəaliyyətdə

**Səhiyyə Nazirliyinin müharibə veteranlarına və şəhid ailələrinə psixoloji yardım və tibbi reabilitasiya üzrə 9109 qısa nömrəli «Çağrı Mərkəzi»nin fəaliyyətə başlamasının 3 ili tamam olur.**



Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Vətən müharibəsində iştirak etmiş qəhrəmanlara və şəhid ailələrinə dövlət qayğısının mühüm tərkib hissəsi olan həmin xidmət 2023-cü il aprelin 1-dən fəaliyyət göstərir. «Çağrı Mərkəzi» müharibə iştirakçılarına və şəhid ailələrinə göstərilən psixoloji yardım və tibbi reabilitasiya xidmətlərinin vahid platformadan koordinasiyası, həmin kateqoriyadan olanlarla proaktiv işin təşkili, onların sağlamlığının qorunması və sosial rifahının yaxşılaşdırılması məqsədilə yaradılıb.

Fəaliyyət göstərdiyi 3 il ərzində «Çağrı Mərkəzi» vasitəsilə müharibə iştirakçıları və şəhid ailələrindən daxil olan ümumilikdə 148971 müraciət cavablandırılıb. Onlardan 28244-ü birbaşa daxil olan zənglər, 120727-si isə proaktiv əlaqələrdir. Bu, Vətən müharibəsi iştirakçılarına göstərilən tibbi və psixoloji xidmətlərin davamlı və sistemli şəkildə həyata keçirildiyini nümayiş etdirir.

Birbaşa daxil olan müraciətlərin 9675-i Bakı, Sumqayıt və şimal bölgəsi, 12240-ı qərb bölgəsi, 124-ü Naxçıvan Muxtar Respublikası, 2221-i Mərkəzi Aran, 3984-ü isə cənub bölgəsinin payına düşür.

Eyni zamanda, «Çağrı Mərkəzi» tərəfindən həyata keçirilən proaktiv zənglərin 43717-si Bakı, Sumqayıt və şimal bölgəsi, 50506-sı qərb bölgəsi, 51-i Naxçıvan Muxtar Respublikası, 9876-sı Mərkəzi Aran, 16577-si isə cənub bölgəsi üzrə qeydə alınıb. Proaktiv zənglər vasitəsilə müharibə iştirakçıları və şəhid ailələrinin ehtiyacları mütəmadi öyrənilir və onlara vaxtında dəstək göstərilir.

Hesabat dövründə psixoloji yardım ilə bağlı 3528 müraciət Səhiyyə Nazirliyinin ixtisaslaşmış qurumlarına yönləndirilib. Bununla yanaşı, psixiatrik müayinə və müalicə ilə bağlı 3481 müraciət daxil olub.

Reabilitasiya xidmətləri çərçivəsində ümumilikdə 3687 müraciət aidiyyəti tibb müəssisələrinə yönləndirilib. Onlardan 2799-u Sanator-Kurort Reabilitasiya Mərkəzinə, 561-i Elmi Tədqiqat Tibbi Bərpa İnstitutuna, 294-ü Göygöl Kardiorevmatoloji Sanatoriyasına göndərilib. Eyni zamanda, 33 şəhid övladı Respublika Uşaq Sanatoriyasında müalicə almaq üçün yönləndirilib.

Fəaliyyət dövründə «Çağrı Mərkəzi»nə 1411 təşəkkür zəngi daxil olub ki, bu da göstərilən xidmətlərin vətəndaşlar tərəfindən yüksək qiymətləndirildiyini nümayiş etdirir.

Qeyd edək ki, 9109 «Çağrı Mərkəzi» həftənin bütün günləri, günün 24 saatı fasiləsiz fəaliyyət göstərir və daxil olan müraciətlərin operativ şəkildə cavablandırılmasını təmin edir. Bu xidmət Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinə göstərilən davamlı dövlət qayğısının mühüm nümunəsidir.

# «UpToDate» platformasının təqdimatı keçirilib





**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) dünyanın ən nüfuzlu klinik qərar dəstəyi platforması olan «UpToDate»in təqdimat tədbiri keçirilib.**

Mərkəzdən verilən məlumata görə, Tədbirdə İSİM əməkdaşları ilə yanaşı, «UpToDate» platformasının regional nümayəndəsi, tibbi innovasiyalar üzrə ekspert Vildan Kandur Stanio, Səhiyyə Nazirliyinin «Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi» Publik Hüquqi Şəxsin aparıcı mütəxəssisi Sevinc Topçubaşova, mütəxəssis Səbinə Rzayeva və digər həmkarlar iştirak ediblər.

İSİM-in direktoru Səbinə Babazadə qonaqları salamlayaraq, son illərdə tibbi innovasiyaların və müasir klinik protokolların səhiyyə sistemimizə inteqrasiyası sahəsində əldə olunan nailiyyətləri vurğulayıb.

«UpToDate» platformasının regional nümayəndəsi Vildan Kandur Stanio platformanın üstünlükləri, Expert AI (süni intellekt əlavəsi), funksional imkanları və praktik tətbiqi barədə ətraflı məlumat verib. O qeyd edib ki, «UpToDate» həkimlərə sübutlu tibbi məlumat bazasına çıxış təmin etməklə diaqnostika və müalicə proseslərini daha dəqiq və effektiv şəkildə qurmağa kömək edir.

Tədbir zamanı platformanın praktiki istifadəsi nümayiş etdirilib, iştirakçıların sualları ətrafında geniş müzakirələr aparılıb.

Belə innovativ həllərin tətbiqi səhiyyə xidmətlərinin keyfiyyətini yüksəltməyə, pasiyent məmnuniyyətini artırmağa və müasir tibbi yanaşmaları genişləndirməyə xidmət edir.

# AMEA əməkdaşları üçün müayinə və maarifləndirmə aksiyası təşkil olunub

**Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), Azərbaycan Kardiologiya Cəmiyyəti (AKC) və «Servye Azərbaycan» şirkətinin birgə təşkilatçılığı ilə «Hədəf 13080» layihəsi çərçivəsində tibbi müayinə aksiyası keçirilib.**

Mərkəzdən verilən məlumata görə, tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova çıxış edərək əhalinin sağlamlığının qorunması istiqamətində təşkil olunan belə maarifləndirici tədbirlərin əhəmiyyətini vurğulayıb. Akademik AMEA ilə Səhiyyə Nazirliyi arasında birgə tədbirlərin təşkilini yüksək qiymətləndirərək, sosial-tibbi layihələrin genişləndirilməsinin elmi ictimaiyyətin sağlamlığının qorunmasında mühüm əhəmiyyət daşıdığını bildirib.

İSİM-in direktor müavini Qəhrəman Haqverdiyev ölkəmizdə qeyri-infeksion xəstəliklərin profilaktikası istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini vurğulayaraq, erkən diaqnostikanın əhalinin sağlamlıq göstəricilərinin yüksəldilməsində həlledici rol oynadığını diqqətə çatdırıb.

Tibb üzrə fəlsəfə doktoru, kardioloq Ülvi Mirzoyev AMEA əməkdaşları üçün icra olunan bu müayinə aksiyasının ürək-damar xəstəliklərindən qorunması və cəmiyyətdə erkən profilaktika mədəniyyətinin gücləndirilməsinə xidmət etdiyini deyib.

Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri, tibb elmləri doktoru Yasmin Rüstəmova ürək-damar xəstəliklərinin əsas risk amillərindən söz açaraq bildirib ki, həyata keçirilən layihə yüksək arterial təzyiqin qarşısının alınmasına, eləcə də bu xəstəliklərlə bağlı yaranan risklərin minimuma endirilməsinə xidmət edir.

«Servye Azərbaycan» şirkətinin direktoru Rişad Təhməzov layihənin əhəmiyyətinə toxunaraq, belə təşəbbüslərin cəmiyyətin sağlamlıq rifahına mühüm töhfə verdiyini qeyd edib. Bildirib ki, aksiya çərçivəsində əməkdaşların arterial təzyiqi ölçülür, ürək-damar xəstəlikləri üzrə erkən diaqnostik müayinələr aparılır. Eyni zamanda, iştirakçılara risk faktorlarının qarşısının alınması və sağlam həyat tərzinin mənimsənilməsi istiqamətində tibbi tövsiyələr verilir.






AMEA Azad Həmkarlar İttifaqının sədr müavini Şəhla Əmirova söyləyib ki, belə sosial layihələrin məqsədi əməkdaşlar arasında sağlam həyat tərzini təşviq etmək və xəstəliklərin vaxtında aşkarlanmasına imkan yaratmaqdır.

Rəsmi hissədən sonra müayinə aksiyasına başlanılıb. AMEA əməkdaşları xüsusi ayrılmış sahədə kardioloq və tibb heyəti tərəfindən müayinə olunublar.

Müayinə aksiyasında iştirak edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli aksiyanın təşkilini yüksək qiymətləndirərək bildirib ki, elmi potensialın qorunması ilk növbədə alimlərimizin və əməkdaşlarımızın sağlamlığından asılıdır. AMEA rəhbəri əməkdaşları bu imkandan aktiv yararlanmağa və sağlamlıqlarına xüsusi diqqət yetirməyə çağırıb.

Üç gün davam edən aksiya çərçivəsində əməkdaşların arterial təzyiqi ölçülüb, ürək-damar sisteminin vəziyyəti qiymətləndirilib və fərdi tibbi məsləhətlər verilib.

# «Böyük Qayıdış» proqramı çərçivəsində stomatoloji aksiya keçirilib

**Səhiyyə Nazirliyi «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində kompleks tibbi müayinələr və sağlam həyat tərzinin təşviqi istiqamətində maarifləndirici tədbirləri davam etdirir. Bu məqsədlə növbəti aksiya Ağdərə rayonunda uğurla keçirilib.**

Aksiyanı Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Tibb Universiteti (ATU) Tədris Stomatoloji Klinikasının həkim briqadası həyata keçirib. Həkimlər həm yerli əhalini, həm də “Böyük Qayıdış” proqramı çərçivəsində Qarabağın bərpasında fəaliyyət göstərən mütəxəssisləri müayinə edərək onlara konsultativ tibbi xidmət göstəriblər.

Aksiya çərçivəsində ilk dəfə olaraq təbabətdə inqilabi yenilik sayılan BPR Swiss-in SMART-PORT portativ stomatoloji qurğusu tətbiq edilib. Bu müasir qurğu



məktəblərdə, qocalar evlərində və səyyar müayinələrdə yüksək keyfiyyətli stomatoloji xidmət göstərməklə, vətəndaşların klinikaya getmək ehtiyacını azaldır və müalicəyə çıxışı daha da asanlaşdırır. SMART-PORT-un fasiləsiz işləmə xüsusiyyəti, tez quraşdırılması və çoxfunksiyalı alətləri (mikromotor, skaler, üçfunksiyalı şpris) müalicə imkanlarını genişləndirir.

Ağdərə sakinləri səyyar şəraitdə bu portativ qurğu vasitəsilə tam stomatoloji xidmət alıblar. Tam avtonom iş rejimi və fasiləsiz işləmə imkanı sayəsində müalicələr daha sürətli və rahat aparılıb, vətəndaşların vaxtına qənaət olunub.

Aksiyanın əsas məqsədi sakinlərin ağız boşluğunun vəziyyətinin qiymətləndirilməsi, müxtəlif stomatoloji patologiyaların erkən aşkarlanması, profilaktik tədbirlərin həyata keçirilməsi və vətəndaşlara geniş konsultativ tibbi xidmətlərin göstərilməsi olub.

ATU-nun Tədris Stomatoloji Klinikasının direktoru İmran Ağayevin rəhbərliyi altında stomatoloq-terapevt, ortodont, ortoped, cərrah və uşaq stomatoloqu daxil olmaqla klinikanın böyük həkim briqadası əhalinin ətraflı stomatoloji müayinəsini aparıb. Ümumilikdə, aksiyada 140-a yaxın vətəndaş tibbi müayinədən keçib, müvafiq müalicə prosedurları aparılıb, erkən diaqnostika və profilaktik konsultasiyalar təmin edilib.

Bu təşəbbüs işğaldan azad edilmiş ərazilərdə həyat keyfiyyətinin artırılması, sağlamlıq xidmətlərinə çıxışın genişləndirilməsi və yerli əhalinin rifahının yaxşılaşdırılması istiqamətində mühüm addım kimi qiymətləndirilir.

# Səhiyyə Nazirliyi Ağalıda tibbi aksiya keçirdi

**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən Zəngilan rayonunun Ağalı kəndində tibbi aksiya təşkil olunub. Aksiya zamanı nazirliyin Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin yüksəkixtisaslı və təcrübəli həkim heyəti bölgə sakinlərinə yerində tibbi xidmət göstəriblər.**









Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, aksiya çərçivəsində müxtəlif ixtisaslar üzrə həkimlər tərəfindən ətraflı tibbi müayinələr aparılıb. Vətəndaşlar terapevt, kardioloq, endokrinoloq, qastroenteroloq və digər ixtisaslı mütəxəssislər tərəfindən qəbul edilib, onların sağlamlıq vəziyyəti qiymətləndirilib və fərdi tibbi tövsiyələr verilib.

Ürək-damar, həzm sistemi, böyrək və endokrin xəstəliklərin erkən aşkarlanması istiqamətində geniş müayinələr həyata keçirilib. Müasir tibbi avadanlıqlardan istifadə olunmaqla elektrokardioqrafiya (EKQ) və digər zəruri diaqnostik prosedurlar tətbiq edilib. Bu isə xəstəliklərin ilkin mərhələdə müəyyən olunmasına və vaxtında müdaxilə imkanlarının artırılmasına şərait yaradıb.

Təxminən 80 nəfərin faydalandığı tibbi aksiya yerli sakinlər tərəfindən böyük maraq və məmnunluqla qarşılanıb. Layihənin əsas üstünlüklərindən biri tibbi xidmətlərin birbaşa əhalinin yaşadığı ərazidə göstərilməsi, onların paytaxta və digər iri şəhərlərə üz tutmasına ehtiyacın azaldılmasıdır.

Qeyd edilib ki, bu cür tibbi aksiyalar işğaldan azad olunmuş ərazilərdə məskunlaşan əhalinin sağlamlığının qorunması, xəstəliklərin erkən diaqnostikası və profilaktikasının gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır və qarşıdakı dövrdə də davam etdiriləcək.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERƏ MÜSABİQƏ ELAN EDİR

**Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi**

*Kardiocərrahiyyə üzrə elmi şöbə:*
Şöbə rəhbəri – 1.0

*Ünvan: M.Şərifzadə küçəsi 196, Telefon: 432-69-51*

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu**

*Ailə təbabəti kafedrası:*
Kafedra müdiri – 1.0
Assistent – 0.5

*Oftalmologiya kafedrası:*
Kafedra müdiri - 1.0

*Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrası:*
Professor – 0.5

*Məhkəmə təbabəti və patoloji anatomiya kafedrası:*
Professor - 0.5

*Ümumi və plastik cərrahiyyə kafedrası:*
Professor – 0.25

*Mamalıq və ginekologiya kafedrası:*
Professor – 0.25

*Terapiya kafedrası:*
Assistent – 1.0

*Kardiologiya kafedrası:*
Dosent – 0.5

*Nevrologiya və klinik neyrofiziologiya kafedrası:*
Professor – 0.5

*Pediatriya kafedrası:*
Dosent – 1.0
Assistent – 1.0

*Ftiziatriya kafedrası:*
Dosent – 1.0

*Psixiatriya və narkologiya kafedrası:*
Assistent – 0.5

*Ünvan: Yasamal ray,Tbilisi pr., 3165-ci məh*
*Telefon: 431 – 01 – 82*

# Mart ayında 12 aptekdə nöqsanlar aşkarlanıb

**Bu ilin mart ayında Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) tərəfindən ümumilikdə 54 aptekdə yoxlama aparılıb. Bu barədə Mərkəzin mətbuat xidmətindən məlumat verilib.**

Məlumata görə, yoxlamalardan 19-u Bakı şəhərində, 35-i isə ölkənin digər şəhər və rayonlarında yerləşən apteklərdə həyata keçirilib.

Bildirilir ki, keçirilmiş yoxlamaların 53-ü planlı, biri isə plandankənar olub.

Nəticələrə əsasən, 12 aptekdə müxtəlif nöqsanlar aşkar edilib. Aşkarlanmış pozuntularla bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 215.4, 221.1, 452.2 və 452.3-cü maddələri üzrə müvafiq inzibati protokollar tərtib olunub.




Baş redaktor: N.MƏCİDOVA
Baş redaktorun müavini: S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi: Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Həsən bəy Zərdabi küç., 96.
Tel./faks: (012) 596-06-61
3-cü mərtəbə, 6-cı otaq
E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*